# BEYNƏLXALQ ARBITRAJDA SÜBUTLARIN TOPLANMASINA DAIR BVA QAYDALARI

Tərcüməyə dair qeyd

Bu sənəd ilkin olaraq Beynəlxalq Vəkillər Assosiasiyasının işçi qrupu tərəfindən ingilis dilində hazırlanmış və Beynəlxalq Vəkillər Assosiasiyası Şurasının qətnaməsi ilə qəbul edilmişdir.

İngilis dilindəki mətnlə hər hansı digər dilə edilmiş tərcümələr arasında uyğunsuzluq olduqda, ingilis dilindəki mətn üstün tutulur.

Tərcümə edənlər: Sezər Allahverdiyev və Camal Əzimov (Bakı Dövlət Universiteti); Əjdər Allahverdiyev, Mansur Səmədov və Prof. Dr. Kəmalə Mehdiyeva (Bakı Arbitraj Mərkəzi, Azərbaycan Arbitraj Assosiasiyası).

*17 dekabr 2020-ci il tarixində*
*BVA Şurasının qətnaməsi ilə qəbul edilmişdir*
*Beynəlxalq Vəkillər Assosiasiyası*

**Arbitraj Komitəsi haqqında**

Beynəlxalq Vəkillər Assosiasiyası Hüquqi Praktika Şöbəsində yaradılmış və transmilli mübahisələrin arbitraj yolu ilə həllinə dair qanunlar, təcrübələr və prosedurlar üzrə ixtisaslaşmış Arbitraj Komitəsinin 130-dan çox ölkədən 3000-dən artıq üzvü var və üzvlərin sayı davamlı olaraq artmaqdadır.

Komitə öz nəşrləri və konfransları vasitəsilə beynəlxalq arbitraj haqqında məlumat paylaşmağa, onun tətbiqini təşviq etməyə və effektivliyini artırmağa çalışır. Komitə daimi alt komitələrə malikdir və müvafiq hallarda konkret məsələlərin həlli üçün İşçi Qrupları yaradır.

## Ön söz

Beynəlxalq Vəkillər Assosiasiyasının (BVA) Beynəlxalq Arbitrajda Sübutların Toplanmasına dair Qaydaları (“BVA Sübut Qaydaları”) 1999-cu ildə Arbitraj Komitəsinin İşçi Qrupu tərəfindən hazırlanmış, 2009-cu ildə Baxış Altkomitəsi tərəfindən və 2020-ci ildə İşçi Qrupu tərəfindən yenidən nəzərdən keçirilmiş Beynəlxalq Kommersiya Arbitrajında Sübutların Toplanmasına dair BVA Qaydalarının yenilənmiş versiyasıdır. İşçi Qrupu, Baxış Altkomitəsinin və digər İşçi Qrupunun üzvlərinin siyahısı 25-ci səhifədən başlayaraq qeyd olunmuşdur.

BVA bu Qaydaları beynəlxalq arbitrajda sübutların toplanmasını səmərəli, qənaətcil və ədalətli şəkildə təmin etmək məqsədilə tərəflər və arbitrlər üçün mənbə kimi təqdim etmişdir. Qaydalar sənədlərin, şahidlərin və ekspertlərin təqdim olunması, baxışların keçirilməsi, habelə sübuta aid arbitraj dinləmələrinin keçirilməsi üçün mexanizmlər müəyyən edir. Bu Qaydaların beynəlxalq arbitraj icraatlarını tənzimləyən institusional, ad hok və digər növ qayda və prosedurlarla birlikdə tətbiq olunması və onlarla yanaşı qəbul edilməsi nəzərdə tutulmuşdur. BVA Sübut Qaydaları müxtəlif hüquq sistemlərində tətbiq olunan prosedurları əks etdirir və tərəflərin müxtəlif hüquqi ənənələrə malik olduğu hallarda xüsusilə faydalı ola bilər.

1999-cu ildə nəşr olunduğundan bəri Beynəlxalq Kommersiya Arbitrajında Sübutların Toplanmasına dair BVA Qaydaları beynəlxalq arbitraj icması tərəfindən geniş şəkildə qəbul olunmuşdur. 2008-ci ildə Arbitraj Komitəsinin o dövrki həmsədrləri Salli Harpol və Pyer Biyenvenünün təşəbbüsü ilə yenidən nəzərdən keçirmə prosesi başlanmışdır. BVA Sübut Qaydalarının yenilənmiş versiyası 1999-cu il İşçi Qrupunun üzvlərinin dəstəyi ilə BVA Sübut Qaydaları üzrə Baxış Altkomitəsinin üzvləri tərəfindən hazırlanmışdır. Yenilənmiş Qaydalar 1999-cu ildə qəbul olunmuş və öz növbəsində 1983-cü ildə nəşr olunmuş “Beynəlxalq Kommersiya Arbitrajında Sübutların Təqdiminə və Qəbuluna dair Əlavə BVA Qaydaları”nı əvəz etmiş “Beynəlxalq Kommersiya Arbitrajında Sübutların Toplanmasına dair BVA Qaydaları”nın yerini almışdır.

2019-cu ildə Qaydaların zərurət olduqda yenidən nəzərdən keçirilməsi və təkmilləşdirilməsi məqsədilə BVA-nın “yumşaq hüquq” (*soft law*) mənbələrinin qəbuluna dair hesabat əsasında Baxış İşçi Qrupu yaradılmışdır. Hazırkı yenilənmiş Qaydalar 2010-cu ildə qəbul olunmuş “Beynəlxalq Arbitrajda Sübutların Toplanmasına dair BVA Qaydalarının” yerini tutur.

Tərəflər öz arbitraj sazişlərində BVA Sübut Qaydalarını qəbul etmək niyyətində olduqda, həmin sazişə, qeyd olunmuş alternativlər arasında seçim edərək, aşağıdakı mətnlərdən birini əlavə etmələri tövsiyə olunur:

*“[Tərəflərin seçdiyi institusional, ad hok və ya digər növ qaydalara əlavə olaraq,] tərəflər arbitraj icraatı [bu sazişin bağlandığı/arbitraj*

*icraatının başlandığı] tarixdə qüvvədə olan BVA Sübut Qaydalarına uyğun şəkildə aparılması ilə razılaşırlar.”*.

Bundan əlavə, tərəflər və arbitraj məhkəmələri arbitraj icraatının əvvəlində və ya istənilən digər mərhələsində BVA Sübut Qaydalarını tam şəkildə və ya qismən qəbul edə bilərlər. Onlar həmçinin bu Qaydaları dəyişdirə və ya öz icraatlarını formalaşdırarkən təlimat kimi istifadə edə bilərlər.

Yenilənmiş BVA Sübut Qaydaları 17 dekabr 2020-ci il tarixində BVA Şurasının qərarı ilə qəbul edilmişdir. BVA Sübut Qaydaları hal-hazırda ingilis dilində mövcuddur, digər dillərə tərcümələri isə planlaşdırılır. BVA Sübut Qaydalarının nüsxələrini BVA-dan sifariş etmək mümkündür; həmçinin Qaydalar aşağıdakı internet səhifəsində əldə edilə bilər: **tinyurl.com/iba-Arbitration-Guidelines**. BVA Sübut Qaydalarının tətbiqi və şərhi zamanı tərəflərə və arbitraj məhkəmələrinə kömək məqsədilə hazırlanmış Kommentariya da yuxarıda göstərilən səhifədə əldə edilə bilər.

**Gaëtan Verhoosel**
**Philippe Pinsolle**
Arbitraj Komitəsinin Həmsədrləri
17 dekabr 2020-ci il

## Qaydalar

### Preambula

**1.** BVA-nın Beynəlxalq Arbitrajda Sübutların Toplanmasına dair Qaydaları beynəlxalq arbitraj məhkəmələrində, xüsusilə müxtəlif hüquqi ənənələrə malik tərəflər arasında olan arbitraj icraatlarında sübutların toplanmasının səmərəli, qənaətcil və ədalətli şəkildə həyata keçirilməsini təmin etmək məqsədi daşıyır. Bu Qaydalar arbitraj icraatının aparılmasına tətbiq edilən hüquqi müddəaları, habelə institusional, ad hok və digər növ qayda və prosedurları tamamlamaq üçün nəzərdə tutulmuşdur.

**2.** Tərəflər və arbitraj məhkəmələri arbitraj icraatını tənzimləmək məqsədilə BVA Sübut Qaydalarını tam şəkildə və ya qismən qəbul edə, onları dəyişdirə və ya öz icraatlarında onlardan istiqamətverici sənəd kimi istifadə edə bilərlər. Bu Qaydalar beynəlxalq arbitrajın mahiyyətinə xas olan və onun üstünlüklərindən biri sayılan çevikliyi məhdudlaşdırmaq məqsədi daşımır, odur ki, tərəflər və arbitraj məhkəmələri bu Qaydaları arbitraj icraatının xüsusi hallarına sərbəst şəkildə uyğunlaşdıra bilərlər.

**3.** Sübutların toplanması tərəflərin yaxşı niyyətlə hərəkət etməli və hər bir tərəf digər tərəfin əsaslandığı sübutlar barədə sübuta aid arbitraj dinləməsindən, yaxud faktların və ya işin mahiyyətinin müəyyən edilməsindən əvvəl ağlabatan müddət ərzində məlumat almaq hüququna malik olduğu prinsiplər əsasında aparılmalıdır.

### Anlayışlar

BVA Sübut Qaydalarında istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

*Arbitraj məhkəməsi* – təkbaşına arbitr və ya arbitrlər kollegiyası;

*İddiaçı* – arbitraj icraatına başlayan, habelə qoşulma və ya digər üsullarla eyni niyyətlə çıxış edən tərəf və ya tərəflər;

*Sənəd* – kağız və ya elektron daşıyıcıda, habelə audio, vizual və ya digər formalarda saxlanılmasından asılı olmayaraq şəkil, rəsm, proqram və digər növ məlumatlar;

*Sübuta aid arbitraj dinləməsi* – ardıcıl günlərdə keçirilib-keçirilməməsindən asılı olmayaraq arbitraj məhkəməsinin şifahi və ya digər növ sübutları qəbul etmək üçün fiziki, telekonfrans, videokonfrans və ya digər formalarda keçirdiyi dinləmə;

*Ekspert rəyi* – Arbitraj məhkəməsinin və ya tərəfin təyin etdiyi ekspertin yazılı bəyanatı;

*Ümumi qaydalar* – arbitrajın keçirilməsinə tətbiq olunan institusional, ad hok və digər növ qaydalar.

*BVA Sübut Qaydaları* və ya *Qaydalar* – Beynəlxalq Vəkillər Assosiasiyasının (BVA) Beynəlxalq Arbitrajda Sübutların Toplanmasına dair Qaydaları, habelə onun dəyişdirilmiş və yenilənmiş nəşrləri;

*Tərəf* – arbitraj prosesində iştirak edən tərəf;

*Tərəfin təyin etdiyi ekspert* – müəyyən edilmiş məsələlərlə bağlı rəy verməsi üçün tərəflərdən birinin təyin etdiyi şəxs və ya təşkilat;

*Distant dinləmə* – tamamilə və ya qismən, habelə müəyyən iştirakçılar üçün telekonfrans, videokonfrans və ya bir neçə məkandan eyni vaxtda iştirak etməyə imkan verən digər rabitə texnologiyası ilə keçirilən dinləmə;

*Sənədin verilməsinə dair sorğu* – bir tərəfin digər tərəfdən müvafiq sənədi verməsini yazılı şəkildə tələb etdiyi müraciət;

*Cavabdeh* – qarşılıqlı iddia irəli sürən cavabdeh də daxil olmaqla, iddiaçının tələbinin yönəldiyi, habelə qoşulma və ya digər vasitələrlə eyni mövqedə çıxış edən tərəf və ya tərəflər;

*Arbitraj məhkəməsinin təyin etdiyi ekspert* – məhkəmə tərəfindən müəyyən məsələlərə dair rəy verməsi üçün təyin olunan şəxs və ya təşkilat;

*Şahid ifadəsi* – şahidin yazılı ifadəsi.

**1-ci maddə Qaydaların tətbiq sahəsi**

**1.** Tərəflər BVA Sübut Qaydalarının tətbiq edilməsinə dair razılığa gəldikdə və ya arbitraj məhkəməsi bu barədə qərar qəbul etdikdə sübutların toplanması prosesi bu Qaydalarla tənzimlənir. Bununla belə, bu Qaydaların hər hansı müddəası müvafiq işə tətbiq olunması üçün tərəflər və ya arbitraj məhkəməsi tərəfindən müəyyən edilmiş məcburi hüquq normaları ilə ziddiyyət təşkil edərsə, həmin müddəa tətbiq edilmir.
**2.** Tərəflər BVA Sübut Qaydalarının tam və ya qismən tətbiq olunması barədə razılığa gəldikdə başqa hal nəzərdə tutulmamışdırsa, müvafiq razılaşmanın bağlandığı tarixdə qüvvədə olan Qaydalar tətbiq olunur.
**3.** BVA Sübut Qaydaları ilə Ümumi Qaydalar arasında ziddiyyət yaranarsa, tərəflər razılaşmada başqa hal nəzərdə tutmamışlarsa, arbitraj məhkəməsi həm BVA Sübut Qaydalarının, həm də Ümumi Qaydaların məqsədlərinə mümkün olduğu qədər nail olmaq üçün BVA Sübut Qaydalarını öz mülahizəsinə uyğun tətbiq edir.
**4.** BVA Sübut Qaydalarının məzmunu ilə bağlı mübahisə yarandıqda arbitraj məhkəməsi müvafiq müddəaları öz məqsədlərinə uyğun olaraq və konkret icraat üçün ən münasib şəkildə təfsir edir.
**5.** BVA Sübut Qaydalarında və Ümumi Qaydalarda sübutların toplanmasına dair müəyyən məsələ tənzimlənmirsə və tərəflər həmin məsələ ilə bağlı razılığa gəlməyiblərsə, arbitraj məhkəməsi sübutların toplanmasını BVA Sübut Qaydalarının ümumi prinsiplərini əsas götürərək hesab etdiyi qaydada həyata keçirir.

**2-ci maddə Sübutlarla bağlı məsələlər üzrə məsləhətləşmə**

**1.** Arbitraj məhkəməsi icraatın mümkün qədər erkən mərhələsində tərəflərlə məsləhətləşməli və onlardan sübutların toplanmasının səmərəli, qənaətcil və ədalətli şəkildə keçirilməsi üçün bir-birləri ilə də məsləhətləşmələrini təşviq etməlidir.

**2.** Sübutlarla bağlı məsələlər üzrə məsləhətləşmələr aşağıdakılar da daxil olmaqla, mümkün olduğu dərəcədə sübutların toplanmasının həcmini, cədvəlini və qaydasını əhatə edə bilər:

**(a)** şahid ifadələrinin və ekspert rəylərinin hazırlanması və təqdim olunması;
**(b)** sübuta aid arbitraj dinləməsində şifahi ifadələrin alınması;
**(c)** sənədlərin təqdim olunmasına dair tələblər, prosedur və format;
**(d)** arbitraj icraatında sübutlara tətbiq olunacaq məxfilik qorunması səviyyəsi;
**(e)** kibertəhlükəsizlik və məlumatların mühafizəsi məsələlərinin tənzimlənməsi; və
**(f)** sübutların toplanması ilə əlaqədar səmərəliliyin, qənaətcilliyin və resursların qorunmasının təşviqi.

**3.** Arbitraj məhkəməsinin münasib hesab etdiyi ən erkən mərhələdə aşağıdakı məsələləri tərəflərə bildirməsi tövsiyə olunur:

**(a)** arbitraj məhkəməsinin işlə əlaqəli və işin nəticəsi üçün əhəmiyyətli hesab etdiyi məsələlər; və/yaxud
**(b)** ilkin müəyyənləşdirmənin məqsədəuyğun ola biləcəyi məsələlər.

**3-cü maddə Sənədlər**

**1.** Tərəf, arbitraj məhkəməsinin müəyyən etdiyi müddət ərzində qarşı tərəfin verdiyi sənədlər istisna olmaqla, istinad etdiyi bütün sənədləri, o cümlədən ictimaiyyətə açıq olan və ictimai mülkiyyətdə olan sənədləri digər tərəflərə və arbitraj məhkəməsinə təqdim etməlidir.
**2.** Arbitraj məhkəməsinin müəyyən etdiyi müddət ərzində tərəflər arbitraj məhkəməsinə və digər tərəflərə sənədin verilməsinə dair sorğu təqdim edə bilər.
**3.** Sənədin verilməsinə dair sorğuda aşağıdakılar əks olunmalıdır:

(a) *(i)* tələb olunan sənədlərin onları müəyyən etmək üçün kifayət qədər dəqiq təsviri; və ya

1. *(ii)* sənədin hansı mövzuya aid olması da daxil olmaqla, mövcud olduğuna dair kifayət qədər əsas olan sənədin aid olduğu kateqoriyanın lazımi qədər dəqiq və spesifik təsviri. Sənəd elektron formada saxlanılırsa, sorğunu göndərən tərəf və ya arbitraj məhkəməsi konkret faylları, axtarış sözlərini, şəxsləri, habelə sənədi səmərəli və qənaətcil şəkildə tapmaq üçün digər axtarış üsullarını tələb edə bilər;

(b) sorğuda tələb olunan sənədlərin müvafiq işlə necə əlaqəli olduğu və işin nəticəsi üçün  əhəmiyyətli olduğu barədə bəyanat ; və

(c) *(i)* tələb olunan sənədlərin sorğunu verən tərəfin sahibliyində, nəzarətində və ya sərəncamında olmadığı barədə bəyanat və ya müvafiq sənədlərin sorğunu verən tərəfindən təqdim edilməsinin əsassız dərəcədə yük törədəcəyinə dair əsaslandırılmış izah; və
*(ii)* tələb olunan sənədlərin müvafiq tərəfin sahibliyində, nəzarətində və ya sərəncamında olduğuna dair sorğunu verən tərəfin əsasları.

**4.** Sənədin verilməsinə dair sorğunun ünvanlandığı tərəf əgər bu tələbə etiraz etməzsə, arbitraj məhkəməsi tərəfindən müəyyən edilmiş müddət

ərzində sahibliyində, nəzarətində və ya sərəncamında olan bütün tələb olunan sənədləri digər tərəflərə, habelə arbitraj məhkəməsinin bu barədə göstərişi olarsa, arbitraj məhkəməsinə təqdim etməlidir.
**5.** Sənədin verilməsinə dair sorğunun ünvanlandığı tərəf tələb olunan sənədlərin bir qisminə və ya hamısına etiraz edərsə, arbitraj məhkəməsi tərəfindən müəyyən edilmiş müddət ərzində həmin etirazı yazılı şəkildə arbitraj məhkəməsinə və digər tərəflərə təqdim etməlidir. Bu etirazın səbəbləri 9.2 və ya 9.3-cü maddələrdə nəzərdə tutulan hallardan biri, yaxud 3.3-cü maddənin tələblərinin yerinə yetirilməməsi ilə əsaslandırılmalıdır. Əgər arbitraj məhkəməsinin bu barədə göstərişi olarsa, müəyyən edilmiş müddət ərzində sənədin verilməsinə dair sorğunu verən tərəf etiraza cavab verə bilər.
**6.** Sənədin verilməsinə dair sorğuya etiraz və bu etiraza cavab alındıqdan sonra arbitraj məhkəməsi etirazın həlli məqsədilə müvafiq tərəfləri qarşılıqlı məsləhətləşməyə dəvət edə bilər.
**7.** Sənədin verilməsinə dair sorğuya etiraz edildikdə hər iki tərəf arbitraj məhkəməsi tərəfindən müəyyən edilmiş müddət ərzində etirazı həll etmək üçün arbitraj məhkəməsinə müraciət edə bilər. Bu zaman arbitraj məhkəməsi sənədin verilməsinə dair sorğunu, ona verilmiş etirazı və etiraza verilmiş cavabı vaxtında nəzərdən keçirir. (i) Sorğunu verən tərəfin sübuta yetirmək istədiyi məsələlər işlə əlaqəli və işin nəticəsi üçün əhəmiyyətlidirsə, habelə (ii) 9.2 və 9.3-cü maddələrdə göstərilən səbəblərdən heç biri sorğuya etiraz verilməsi üçün əsas vermirsə və (iii) 3.3-cü maddənin tələbləri yerinə yetirilmişdirsə, arbitraj məhkəməsi sorğunun ünvanlandığı tərəfə sahibliyində, nəzarətində və ya sərəncamında olan sənədlərin təqdim olunmasını əmr edə bilər. Bu sənədlər digər tərəflərə, habelə arbitraj məhkəməsinin bu barədə göstərişi olarsa, arbitraj məhkəməsinə təqdim edilməlidir.
**8.** Müstəsna hallarda, əgər etirazın əsaslılığının müəyyən edilməsi yalnız müvafiq sənədin nəzərdən keçirilməsi yolu ilə mümkün olarsa, arbitraj məhkəməsi həmin sənədi özü nəzərdən keçirilməməsi barədə qərar qəbul edə bilər. Belə olan halda arbitraj məhkəməsi tərəflərlə məsləhətləşdikdən sonra müvafiq sənədi nəzərdən keçirilmək və etiraza dair rəy vermək məqsədilə məxfilik öhdəliyi daşıyan müstəqil və qərəzsiz ekspert təyin edə bilər. Arbitraj məhkəməsi etirazı əsaslı hesab etdiyi halda ekspert araşdırılmış sənədin məzmununu nə arbitraj məhkəməsinə, nə də digər tərəflərə açıqlamamalıdır.
**9.** Tərəflərdən biri arbitraj prosesində tərəf olmayan bir şəxsdən və ya təşkilatdan sənədlərin təqdim olunmasını istəyirsə və həmin sənədləri özbaşına əldə edə bilmirsə, həmin tərəf arbitraj məhkəməsinin müəyyən etdiyi müddət ərzində tələb olunan sənədləri əldə etmək üçün arbitraj məhkəməsinin qanuni yolla mümkün olan hər hansı addımı atması üçün müraciət edə və ya bu addımları özünün atması üçün arbitraj məhkəməsindən icazə istəyə bilər. Tərəf bu müraciəti arbitraj məhkəməsinə və digər tərəflərə yazılı şəkildə təqdim etməlidir və bu müraciət 3.3-cü maddədə nəzərdə tutulan məlumatları mümkün qədər ehtiva etməlidir. Arbitraj məhkəməsi bu müraciət üzrə qərar qəbul edərək müvafiq sənədlərin əldə olunması üçün uyğun hesab etdiyi tədbirləri özü görə, müraciət edən tərəfə bu tədbirləri görmək səlahiyyəti verə və ya digər tərəfə bu tədbirləri görməyi əmr edə bilər.

Bu qərar arbitraj məhkəməsi tərəfindən aşağıdakı hallarda öz mülahizəsinə əsasən qəbul edilə bilər: (i) sənədlər işlə əlaqəli və işin nəticəsi üçün əhəmiyyətlidirsə, (ii) 3.3-cü maddənin tələbləri mümkün qədər yerinə yetirilmişdirsə və (iii) 9.2 və 9.3-cü maddələrdə göstərilən səbəblərdən heç biri sorğuya etiraz verilməsi üçün əsas vermirsə.

**10.** Arbitraj icraatı başa çatmamışdan əvvəl istənilən vaxt arbitraj məhkəməsi (i) tərəflərdən sənədləri təqdim etmələrini, və ya (ii) sənədləri əldə etmək üçün bütün səylərini göstərmələrini tələb edə, habelə (iii) özü digər şəxslərdən və ya təşkilatlardan sənədləri əldə etmək məqsədilə uyğun hesab etdiyi istənilən addımı ata bilər. Tərəflər bu tələbə 9.2 və ya 9.3-cü maddələrdə göstərilən səbəblərdən birinə və ya bir neçəsinə əsaslanaraq etiraz edə bilər. Belə hallarda 3.4-dən 3.8-ə qədər olan maddələr müvafiq şəkildə tətbiq olunur.

**11.** Tərəflər arbitraj məhkəməsi tərəfindən müəyyən edilmiş müddət ərzində arbitraj məhkəməsinə və digər tərəflərə istinad etməyi planlaşdırdıqları, habelə artıq təqdim olunmuş sənədlərdə, şahid ifadələrində, ekspert rəylərində və ya tərəflərin digər təqdimatlarında qaldırılmış məsələlər nəticəsində işlə əlaqəli və işin nəticəsi üçün əhəmiyyətli hala gəldiyinə inandıqları əlavə sənədləri təqdim edə bilərlər.

**12.** Tərəflər sənədlərin təqdim edilməsi və ya verilməsi forması ilə bağlı başqa cür razılığa gəlməmişlərsə, habelə tərəflər arasında belə razılaşma olmadığı təqdirdə arbitraj məhkəməsi başqa şərtlər müəyyən edən qərar qəbul etməmişdirsə, aşağıdakılar tətbiq olunur:

- **(a)** sənədlərin surətləri orijinal sənədlərə uyğun olmalı və arbitraj məhkəməsinin tələbi olarsa, müvafiq orijinal sənəd baxış üçün təqdim edilməlidir;
- **(b)** tərəfin elektron formada saxladığı sənədlər ən əlverişli və ya qənaətcil formada, bununla yanaşı digər tərəflər üçün ağlabatan dərəcədə istifadə edilə bilən şəkildə təqdim edilməlidir;
- **(c)** tərəf mahiyyət etibarilə eyni olan sənədlərin çoxsaylı nüsxələrini təqdim etməyə borclu deyildir;
- **(d)** sənədin verilməsinə dair sorğu əsasında təqdim olunan sənədlərin tərcüməsi tələb olunmur;
- **(e)** arbitraj icraatının aparıldığı dildən fərqli dildə olan sənədlər arbitraj məhkəməsinə təqdim olunarkən onlara “tərcümə” kimi qeyd olunmuş tərcümələr əlavə olunmalıdır.

**13.** Arbitrajda tərəflər və ya tərəf olmayan digər şəxslər tərəfindən verilən və ya təqdim olunan, habelə açıq mənbələrdə mövcud olmayan sənədlər tərəflər və arbitraj məhkəməsi tərəfindən məxfi saxlanılmalı və yalnız arbitraj icraatının məqsədləri üçün istifadə olunmalıdır. Yalnız tərəfin hüquqi öhdəliyini yerinə yetirməsi, hüquqi müdafiəsini həyata keçirməsi və ya hüququnu təmin etməsi, yaxud arbitraj qərarının icrası və ya qərara qarşı vicdanlı şəkildə dövlət məhkəməsində və ya digər səlahiyyətli məhkəmə orqanı qarşısında çıxış etməsini təmin etmək məqsədi ilə sənədin açıqlanması zəruri olduqda məxfilik tələbi müvafiq ölçüdə olunur. Arbitraj məhkəməsi məxfiliyin şərtlərini müəyyən edən qərarlar qəbul edə bilər. Bu tələb arbitraj çərçivəsində tətbiq olunan digər məxfilik tələblərinə xələl gətirmir.

**14.** Arbitraj icraatı ayrı-ayrı məsələlər üzrə və ya mərhələlərə (məsələn, yurisdiksiyanın müəyyən edilməsi, ilkin məslələr üzrə müəyyənləşdirmələrin aparılması, məsuliyyət və ya zərərin müəyyən edilməsi) bölünübsə, arbitraj məhkəməsi tərəflərlə məsləhətləşmədən sonra sənədlərin təqdim olunması və sənədin verilməsinə dair sorğuların verilməsini hər bir məsələ və ya mərhələ üzrə ayrıca vaxt planına uyğun təşkil edə bilər.

**Maddə 4. Şahidlər**

**1.** Tərəflər arbitraj məhkəməsinin müəyyən etdiyi müddət ərzində şahid qismində çıxış etməsini istədikləri şəxslərin kimliyini və müvafiq şahid ifadələrinin aid olduğu məsələləri bildirməlidir.
**2.** İstənilən şəxs, o cümlədən tərəfin özü və ya tərəfin vəzifəli şəxsi, əməkdaşı, habelə digər nümayəndəsi şahid qismində sübut təqdim edə bilər.
**3.** Tərəfin özünün, onun vəzifəli şəxslərinin, əməkdaşlarının, hüquqşünaslarının və ya digər nümayəndələrinin şahidlər və ya potensial şahidlər ilə danışqlar aparması və onların ehtimal olunan ifadəsini müzakirə etməsi qəbuledilləndir.
**4.** Arbitraj məhkəməsi 4.9 və 4.10-cu maddələrə əsasən ifadəsi tələb olunan şahidlər istisna olmaqla, tərəflərin ifadəsinə istinad etmək niyyətində olduğu şahidlərin ifadələrini müəyyən edilmiş müddət ərzində arbitraj məhkəməsinə və digər tərəflərə təqdim etməsinə dair göstəriş verə bilər. Sübuta aid arbitraj dinləmələri yurisdiksiyanın müəyyən olunması, ilkin məsələlər üzrə müəyyənləşdirmələr, məsuliyyət və ya zərərin müəyyən edilməsi kimi ayrı-ayrı məsələlər və ya mərhələlər üzrə təşkil olunarsa, arbitraj məhkəməsi və ya tərəflər öz razılaşmaları yolu ilə şahid ifadələrinin təqdim olunma vaxtını hər bir məsələ və ya mərhələ üzrə müəyyən edə bilər.
**5.** Şahid ifadəsi aşağıdakıları əhatə etməlidir:

- **(a)** şahidin tam adı və ünvanı, onun tərəflər ilə cari və ya əvvəlki münasibətləri (əgər varsa) barədə məlumat, habelə əgər bu müvafiq mübahisəyə və ya ifadənin məzmununa aidiyyəti varsa, şahidin təhsili, ixtisası, hazırlığı və təcrübəsinin təsviri;
- **(b)** faktların mübahisə üzrə dəlil kimi çıxış edə biləcək dərəcədə ətraflı və dolğun təsviri və bu faktlar üzrə şahidin məlumatının mənbəyi. Şahidin istinad etdiyi, lakin hələ təqdim olunmamış sənədlər əlavə edilməlidir;
- **(c)** şahid ifadəsinin ilkin olaraq hansı dildə hazırlandığı və şahidin sübuta aid arbitraj dinləməsində hansı dildə ifadə verməyi nəzərdə tutduğu barədə bəyanat;
- **(d)** şahid ifadəsinin həqiqiliyinə dair təsdiq; və
- **(e)** şahidin imzası, tarix və yer.

**6.** Şahid ifadələri təqdim edildikdən sonra tərəflər arbitraj məhkəməsinin müəyyən etdiyi müddət ərzində düzəliş edilmiş və ya əlavə şahid ifadələrini, o cümlədən əvvəllər şahid kimi göstərilməmiş şəxslərin şahid ifadələrini arbitraj məhkəməsinə və digər tərəflərə təqdim edə bilərlər, o halda ki, bu düzəlişlər və əlavələr yalnız aşağıdakılara cavab olaraq təqdim edilsin:

**(a)** digər tərəfin arbitraj icraatında daha əvvəl təqdim olunmamış şahid ifadələrində, ekspert rəylərində və ya daha əvvəl digər materiallarında əks olunan məsələlərə; və ya

**(b)** əvvəlki şahid ifadəsində qeyd olunması mümkün olmayan yeni faktiki hallara.

**7.** Əgər 8.1-ci maddəyə əsasən ifadə vermək üçün çağırılmış şahid əsaslı səbəb olmadan ifadə vermək üçün sübuta aid arbitraj dinləməsinə gəlməzsə, arbitraj məhkəməsi şahidin həmin sübuta aid arbitraj dinləməsi ilə bağlı şahid ifadəsini nəzərə almır. Bununla belə, istisna hallarda arbitraj məhkəməsi fərqli qərarlar verə bilər.

**8.** Əgər 8.1-ci maddəyə əsasən şahidin ifadə verməsi tələb edilməyibsə, digər tərəflərdən heç biri həmin şahid ifadəsinin məzmununun düzgünlüyü ilə razılaşmış hesab olunmur.

**9.** Əgər tərəflərdən biri ifadə verməsini istədiyi şəxsin onun çağırışı ilə könüllü şəkildə gəlməyəcəyini bilirsə, həmin tərəf arbitraj məhkəməsinin müəyyən etdiyi müddət ərzində müvafiq şəxsin ifadəsini almaq üçün mövcud hüquqi vasitələrdən istifadə edilməsini arbitraj məhkəməsindən xahiş edə və ya bu vasitələrdən özü istifadə etmək üçün arbitraj məhkəməsindən icazə istəyə bilər. Arbitraj məhkəməsinə belə bir müraciət edilərsə, müraciət edən tərəf ifadə verməsini istədiyi şəxsi bildirməli, həmin şəxsin ifadəsinin hansı mövzularla bağlı olacağını izah etməli və bu mövzuların hansı baxımdan işlə əlaqəli və işin nəticəsi üçün əhəmiyyətli olduğunu əsaslandırmalıdır. Arbitraj məhkəməsi bu müraciət üzrə öz mülahizəsinə əsasən qərar qəbul edərək müvafiq şəxsin ifadəsinin işlə əlaqəli və işin nəticəsi üçün əhəmiyyətli olduğunu hesab edərsə, bu halda məhkəmə özü tədbir görə, bu tədbirləri görmək üçün müraciət edən tərəfə səlahiyyət verə və ya digər tərəfə bu tədbirləri görməyi əmr edə bilər.

**10.** Arbitraj icraatının başa çatmasından əvvəl istənilən vaxt arbitraj məhkəməsi tərəflərə ifadəsi təqdim olunmamış şəxslər də daxil olmaqla istənilən şəxsin sübuta aid arbitraj dinləməsində ifadə vermək üçün gəlməsini təmin etməyi və ya bu şəxsin gəlməsini təmin etmək üçün əlindən gələni etməyi əmr edə bilər. Tərəflər bu tələbə 9.2 və 9.3-cü maddələrdə göstərilmiş səbəblərdən biri və ya bir neçəsi əsasında etiraz edə bilərlər.

### Maddə 5. Tərəfin təyin etdiyi ekspertlər

**1.** Tərəf konkret məsələlər üzrə sübut kimi tərəfin təyin etdiyi ekspertə istinad edə bilər. Arbitraj məhkəməsinin müəyyən etdiyi müddət ərzində (i) hər bir tərəf istinad etməyi planlaşdırdığı tərəfin təyin etdiyi eksperti və həmin ifadənin predmetini müəyyən etməli; və (ii) tərəfin təyin etdiyi ekspert Ekspert rəyini təqdim etməlidir.

**2.** Ekspert rəyində aşağıdakılar olmalıdır:

**(a)** Tərəfin təyin etdiyi ekspertin tam adı və ünvanı, onun tərəflərdən hər hansı biri, onların hüquqşünasları və arbitraj məhkəməsi ilə indiki və əvvəlki münasibətləri (əgər varsa) barədə bəyanat, habelə onun təcrübəsi, kvalifikasiyaları, hazırlığı və peşəkar fəaliyyəti haqqında məlumat.

**(b)** öz rəy və nəticələrini təqdim etməsi üçün ekspertə verilmiş təlimatların təsviri;

**(c)** Ekspertin tərəflərdən, onların hüquqşünaslarından və arbitraj məhkəməsindən müstəqilliyi barədə bəyanat;
**(d)** Ekspertin rəy və nəticələrini əsaslandırdığı faktlar barədə bəyanat;
**(e)** Ekspertin rəy və nəticələri, o cümlədən nəticələrə gəlmək üçün istifadə etdiyi metodların, sübutların və məlumatın təsviri; tərəfin təyin etdiyi ekspertin istinad etdiyi, lakin hələ təqdim olunmamış sənədlər əlavə edilməlidir;
**(f)** Ekspert rəyi tərcümə edildiyi halda, rəyin ilkin hazırlandığı dil və ekspertin sübuta arbitraj dinləməsində ifadə verməyi nəzərdə tutduğu dil barədə bəyanat;
**(g)** Ekspert rəyində ifadə edilmiş rəylərə səmimi inandığını təsdiq edən bəyanat;
**(h)** Tərəfin təyin etdiyi ekspertin imzası, habelə onun tarixi və yeri; və
**(i)** Ekspert rəyi bir neçə şəxs tərəfindən imzalanmışdırsa, rəyin bütövlükdə və ya konkret hissələrinin hansı müəllifə aid edilməsi barədə bölgü.

**3.** Ekspert rəyləri təqdim edilərsə, hər bir tərəf arbitraj məhkəməsinin müəyyən etdiyi müddət ərzində arbitraj məhkəməsinə və digər tərəflərə dəyişdirilmiş və ya əlavə ekspert rəyləri (o cümlədən əvvəlcə tərəfin təyin etdiyi ekspert kimi göstərilməmiş şəxslərin hesabat və ya bəyanatlarını) təqdim edə bilər; lakin belə dəyişiklik və əlavələr yalnız aşağıdakılara cavab verdiyi hallarda qəbul olunmalıdır:
**(a)** digər tərəfin şahid ifadələrində, ekspert rəylərində və ya arbitrajda əvvəl təqdim edilməmiş digər təqdimatlarında yer alan məsələlərə; və ya
**(b)** əvvəlki ekspert rəyində nəzərə alınması mümkün olmayan yeniliklərə.

**4.** Arbitraj məhkəməsi öz mülahizəsinə əsasən eyni və ya əlaqəli məsələlər üzrə ekspert rəyləri təqdim etmiş və ya təqdim edəcək tərəfin təyin etdiyi ekspertlərin həmin məsələləri müzakirə etmək üçün görüşmələrini tələb edə bilər. Bu görüşdə tərəfin təyin etdiyi ekspertlər ekspert rəylərinin əhatə dairəsinə daxil olan məsələlər üzrə razılığa gəlməyə çalışmalı və razılaşdırılmış məsələləri, qalan fikir ayrılıqlarını, habelə bu fikir ayrılıqlarının səbəblərini yazılı şəkildə sənədləşdirməlidirlər.

**5.** 8.1-ci maddəyə əsasən ifadə verməsi üçün çağırılmış tərəfin təyin etdiyi ekspert sübuta aid arbitraj dinləməsində üzrlü səbəb olmadan iştirak etməzsə, arbitraj məhkəməsi, müstəsna hallarda başqa cür qərar vermədikcə, həmin ekspertin həmin arbitraj dinlənəməsi ilə bağlı ekspert rəyini nəzərə almayacaq.

**6.** 8.1-ci maddəyə əsasən tərəfin təyin etdiyi ekspertin ifadə verməsi tələb edilməmişdirsə, digər tərəflərin heç biri ekspert rəyinin məzmununun düzgünlüyünü qəbul etmiş sayılmayacaq.

**Maddə 6. Məhkəmənin təyin etdiyi ekspertlər**

**1.** Arbitraj məhkəməsi tərəflərlə məsləhətləşdikdən sonra onun müəyyən etdiyi konkret məsələlər üzrə hesabat vermək üçün bir və ya bir neçə müstəqil Arbitraj məhkəməsi tərəfindən təyin edilmiş ekspert

təyin edə bilər. Arbitraj məhkəməsi, tərəflərlə məsləhətləşdikdən sonra, hər bir belə ekspert rəyi üçün əsas şərtləri müəyyən etməlidir. Əsas şərtlərin yekun nüsxəsi arbitraj məhkəməsi tərəfindən tərəflərə göndərilir.

**2.** Məhkəmənin təyin etdiyi ekspert təyinatı qəbul etməzdən əvvəl arbitraj məhkəməsinə və tərəflərə öz kvalifikasiyası və tərəflərdən, onların hüquqşünaslarından və arbitraj məhkəməsindən müstəqilliyi barədə bəyanat təqdim etməlidir. Arbitraj məhkəməsinin müəyyən etdiyi müddət ərzində tərəflər arbitraj məhkəməsini ekspertin kvalifikasiyaları və müstəqilliyi ilə bağlı etirazlarının olub-olmaması barədə məlumatlandırmalıdırlar. Arbitraj məhkəməsi belə etirazın qəbul edilib-edilməməsi barədə dərhal qərar verməlidir. Məhkəmə tərəfindən təyin edilmiş ekspertin təyinatından sonra tərəf yalnız təyinatdan sonra məlum olan səbəblərə əsasən ekspertin kvalifikasiyası və ya müstəqilliyi barədə etiraz irəli sürə bilər. Arbitraj məhkəməsi bu cür etirazı qəbul etdikdə, görüləcək tədbirlər barədə operativ şəkildə qərar verməlidir.

**3.** 9.2 və 9.3-cü maddələrin müddəalarına uyğun olaraq, arbitraj məhkəməsinin təyin etdiyi ekspert işlə əlaqəli olduğu və işin nəticəsi üçün əhəmiyyətli olduğu həcmdə tərəfdən istənilən məlumatı təqdim etməyi və ya sənədlərə, mallara, nümunələrə, əmlaka, avadanlığa, sistemlərə, proseslərə və ya obyektə baxış keçirilməsinə şərait yaradılmasını tələb edə bilər. Tərəflər və onların nümayəndələri bu cür məlumatı almaq və belə baxışda iştirak etmək hüququna malikdirlər. Arbitraj məhkəməsi tərəfindən təyin edilmiş ekspertlə tərəf arasında bu tələbin əlaqəliliyi, əhəmiyyəti və ya uyğunluğu barədə yaranan fikir ayrılığı 3.5-3.8-ci maddələrdə nəzərdə tutulan qaydada arbitraj məhkəməsi tərəfindən həll edilir. Tərəf arbitraj məhkəməsinin müvafiq tələb və ya qərarına əməl etmədikdə, Arbitraj məhkəməsi tərəfindən təyin edilmiş ekspert bu riayətsizliyi ekspert rəyində qeyd etməli və bunun konkret məsələ üzrə nəticəyə təsirini göstərməlidir.

**4.** Arbitraj məhkəməsinin təyin etdiyi ekspert arbitraj məhkəməsinə yazılı şəkildə ekspert rəyi təqdim etməlidir. Ekspert rəyində aşağıdakılar olmalıdır:

- **(a)** Arbitraj məhkəməsinin təyin etdiyi ekspertin tam adı və ünvanı, habelə onun təcrübəsi, kvalifikasiyası, hazırlığı və peşəkar fəaliyyəti haqqında məlumat;
- **(b)** Ekspertin rəy və nəticələrini əsaslandırdığı faktlar barədə bəyanat;
- **(c)** Ekspertin rəy və nəticələri, o cümlədən nəticələrə gəlmək üçün istifadə etdiyi metodların, sübutların və məlumatın təsviri; Arbitraj məhkəməsi tərəfindən təyin edilmiş ekspertin istinad etdiyi, lakin hələ təqdim olunmamış sənədlər əlavə edilməlidir;
- **(d)** Ekspert rəyi tərcümə edildiyi halda, rəyin ilkin hazırlandığı dil və ekspertin sübuta aid arbitraj dinlənəməsində ifadə verməyi nəzərdə tutduğu dil barədə bəyanat;
- **(e)** Ekspert rəyində ifadə edilmiş rəylərə səmimi inandığını təsdiq edən bəyanat;
- **(f)** Arbitraj məhkəməsinin təyin etdiyi ekspertin imzası, habelə onun tarixi və yeri; və

**(g)** Ekspert rəyi bir neçə şəxs tərəfindən imzalanmışdırsa, rəyin bütövlükdə və ya konkret hissələrinin hansı müəllifə aid edilməsi barədə bölgü.

**5.** Arbitraj məhkəməsi bu ekspert rəyinin surətini tərəflərə göndərməlidir. Tərəflər Arbitraj məhkəməsinin təyin etdiyi ekspertin araşdırdığı istənilən məlumatı, sənədləri, malları, nümunələri, əmlakı, avadanlığı, sistemləri, prosesləri və ya obyekti, habelə arbitraj məhkəməsi ilə Arbitraj məhkəməsinin təyin etdiyi ekspert arasında aparılmış bütün yazışmaları nəzərdən keçirmək hüququna malikdirlər. Arbitraj məhkəməsinin müəyyən etdiyi müddət ərzində hər bir tərəf ekspert rəyinə öz yazılı təqdimatı, yaxud şahid ifadəsi və ya tərəfin təyin etdiyi ekspertin ekspert rəyi vasitəsilə cavab vermək imkanı vardır. Arbitraj məhkəməsi həmin təqdimatı, şahid ifadəsini və ya ekspert rəyini həm Arbitraj məhkəməsi tərəfindən təyin edilmiş ekspertə, həm də digər tərəflərə göndərməlidir.

**6.** Tərəfin və ya arbitraj məhkəməsinin tələbi əsasında Arbitraj məhkəməsinin təyin etdiyi ekspert sübuta aid arbitraj dinlənəməsində iştirak etməlidir. Arbitraj məhkəməsi eksperti dindirə bilər; həmçinin ekspertə onun ekspert rəyində, tərəflərin təqdimat və şahid ifadələrində, eləcə də 6.5-ci maddəyə əsasən tərəfin təyin etdiyi ekspertlərin rəylərində qaldırılmış məsələlər üzrə tərəflər və ya tərəfin təyin etdiyi ekspertlər sual verə bilərlər.

**7.** Məhkəmənin təyin etdiyi ekspertin hazırladığı hər hansı ekspert rəyi və onun nəticələri arbitraj məhkəməsi tərəfindən işin bütün hallarına lazımi diqqət yetirməklə qiymətləndirilir.

**8.** Məhkəmə tərəfindən təyin edilmiş ekspertin haqq və xərcləri, arbitraj məhkəməsi tərəfindən müəyyən edilən qaydada maliyyələşdirilməklə, arbitraj xərclərinin tərkib hissəsini təşkil edir.

## Maddə 7. Baxış

9.2 və 9.3-cü maddələrin müddəalarına uyğun olaraq, arbitraj məhkəməsi tərəfin tələbi ilə və ya öz təşəbbüsü ilə, zəruri hesab etdiyi hallarda hər hansı obyekt, əmlak, avadanlıq, digər mallar, nümunələr, sistemlər, proseslər və ya sənədlərin özünün baxışını keçirə və ya bu baxışın arbitraj məhkəməsi tərəfindən təyin edilmiş ekspert və ya tərəfin təyin etdiyi ekspert tərəfindən aparılmasını tələb edə bilər. Arbitraj məhkəməsi, tərəflərlə məsləhətləşməklə, baxışın vaxtını və təşkil edilməsi qaydasını müəyyən etməlidir. Tərəflər və onların nümayəndələri belə baxışda iştirak etmək hüququna malikdirlər.

## Maddə 8. Sübuta aid arbitraj dinləməsi

**1.** Arbitraj məhkəməsinin müəyyən etdiyi müddət ərzində hər bir tərəf, ifadə verməsini tələb etdiyi şahidlərin siyahısını (bu maddənin məqsədləri üçün “şahid” anlayışına həm şahidlər, həm də bütün ekspertlər daxildir) arbitraj məhkəməsinə və digər tərəflərə təqdim etməlidir. 8.3-cü maddənin tələblərinə riayət edilməklə, ifadə verməsi tələb edilən hər bir şəxs sübuta aid arbitraj dinlənəməsində iştirak etməlidir.

**2.** Tərəfin sorğusu və ya öz təşəbbüsü ilə, arbitraj məhkəməsi tərəflərlə məsləhətləşdikdən sonra sübuta aid arbitraj dinləməsinin distant

formatında keçirilməsinə qərar verə bilər. Bu halda Arbitraj məhkəməsi tərəflərlə birlikdə distant dinləməsinin səmərəli, ədalətli və imkan daxilində, arzuolunmaz kəsintilər olmadan aparılmasını təmin edəcək distant dinləmə protokolunu hazırlamalıdır. Protokolda aşağıdakılar nəzərdə tutula bilər:

**(a)** istifadə olunacaq texnologiya;

**(b)** texnologiyanın əvvəlcədən sınaqdan keçirilməsi və ya onun istifadəsi üzrə təlim;

**(c)** İştirakçıların yerləşdiyi saat qurşaqları nəzərə alınmaqla dinləmənin başlanma və bitmə vaxtları;

**(d)** Sənədlərin şahidə və ya arbitraj məhkəməsinə necə təqdim olunacağı; və

**(e)** şifahi ifadə verən şahidlərin uyğunsuz təsirə və ya diqqət yayındırmasına məruz qalmamasını təmin edən tədbirlər.

**3.** Arbitraj məhkəməsi sübuta aid arbitraj dinləməsi üzərində daim tam nəzarətə malikdir. Arbitraj məhkəməsi istənilən şahidə verilən sualın, onun verdiyi cavabın və ya şahidin iştirakının əlaqəsiz, əhəmiyyətsiz, əsassız dərəcədə ağır, təkrar və ya 9.2 və 9.3-cü maddələrdə göstərilən etiraz əsaslarından hər hansı biri ilə əhatə olunmasına əsaslanaraq, belə sualı, cavabı və ya iştirakı məhdudlaşdıra və ya istisna edə bilər. Şahidin birbaşa və yenidən dindirilməsi zamanı verilən suallar əsassız şəkildə yönləndirici olmamalıdır.

**4.** Sübuta aid arbitraj dinləməsində şifahi ifadədə:

**(a)** iddiaçı bir qayda olaraq əvvəlcə öz şahidlərinin ifadələrini təqdim etməlidir, bundan sonra isə cavabdeh öz şahidlərinin ifadələrini təqdim etməlidir;

**(b)** birbaşa ifadədən sonra arbitraj məhkəməsinin müəyyən etdiyi ardıcıllığa uyğun olaraq digər hər hansı tərəf həmin şahidə sual verə bilər. Şahidi ilk təqdim etmiş tərəf isə sonradan digər tərəflərin sualları zamanı qaldırılmış məsələlər üzrə əlavə suallar vermək hüququna malikdir.

**(c)** iddiaçı bir qayda olaraq bundan sonra ilk olaraq özü təyin etdiyi ekspertlərin ifadələrini təqdim etməli, ardınca cavabdeh öz tərəfin təyin etdiyi ekspertlərinin ifadələrini təqdim etməlidir. Eksperti ilk təqdim etmiş tərəf isə digər tərəflərin sualları zamanı qaldırılmış məsələlər üzrə əlavə suallar vermək hüququna malikdir.

**(d)** Arbitraj məhkəməsi, onun təyin etdiyi eksperti dindirə bilər; eyni zamanda həmin ekspertə, arbitraj məhkəməsi tərəfindən təyin edilmiş ekspert rəyində, tərəflərin təqdimatlarında və ya tərəflərin təyin etdiyi ekspertlərin ekspert rəylərində qaldırılmış məsələlər üzrə tərəflər və ya hər hansı tərəfin təyin etdiyi ekspert sual verə bilər.

**(e)** arbitraj ayrı-ayrı məsələlər və ya mərhələlər (məsələn, yurisdiksiya, ilkin müəyyənləşdirmələr , məsuliyyət və zərərlər) üzrə təşkil edilibsə, hər bir məsələ və ya mərhələ üzrə ifadələr üçün ayrıca vaxt təyin edilməsi barədə tərəflər razılaşa bilər və ya arbitraj məhkəməsi bu barədə qərar verə bilər;

**(f)** Tərəfin tələbi ilə və ya öz təşəbbüsü ilə, arbitraj məhkəməsi bu ardıcıllığı dəyişə, o cümlədən ifadələri konkret məsələlər üzrə

qruplaşdıra və ya şahidlərin eyni vaxtda üz-üzə dindirilməsini (birgə şahid dindirilməsi) təşkil edə bilər;

**(g)** Arbitraj məhkəməsi istənilən vaxt şahidə sual verə bilər.

**5.** Şahid əvvəlcə həqiqəti söyləyəcəyini, ekspert isə sübuta aid arbitraj dinləməsində ifadə edəcəyi rəylərə səmimi inandığını arbitraj məhkəməsinin müəyyən etdiyi qaydada təsdiqləməlidir. Şahid ifadə və ya ekspert rəy təqdim etmişdirsə, onu təsdiq etməlidir. Şahid ifadəsi və ya ekspert rəyinin həmin şahidin və ya ekspertin birbaşa dindirilməsi kimi qəbul olunması barədə Tərəflər razılaşa və ya arbitraj məhkəməsi qərar verə bilər; belə halda arbitraj məhkəməsi yenə də əlavə şifahi birbaşa dindirilməyə icazə verə bilər.

**6.** 9.2 və 9.3-cü maddələrin müddəalarına uyğun olaraq, arbitraj məhkəməsi işlə əlaqəli və işin nəticəsi üçün əhəmiyyətli istənilən məsələ üzrə istənilən şəxsdən şifahi və ya yazılı sübut təqdim etməsini tələb edə bilər. Arbitraj məhkəməsi tərəfindən çağırılıb dindirilmiş hər bir şəxsə tərəflər də sual verə bilərlər.

**Maddə 9. Sübutların mümkünlüyü və qiymətləndirilməsi**

**1.** Arbitraj məhkəməsi sübutların mümkünlüyünü, əlaqəliliyini, əhəmiyyətini və mötəbərliyini müəyyən edir.

**2.** Arbitraj məhkəməsi tərəfin tələbi əsasında və ya öz təşəbbüsü ilə, aşağıdakı hallardan hər hansı biri olduqda, istənilən sənəd, bəyanat, şifahi ifadə və ya baxışın tam və ya qismən sübut kimi qəbul edilməsinə və ya təqdimatına yol verməməlidir:

**(a)** işlə kifayət qədər əlaqəsinin və işin nəticəsi üçün əhəmiyyətliliyinin olmaması;

**(b)** Arbitraj məhkəməsinin tətbiqinə qərar verdiyi hüquqi və ya etik normalar üzrə mövcud qanuni məhdudiyyət və ya imtiyaz (9.4-cü maddəyə bax);

**(c)** tələb olunan sübutun təqdim edilməsinin əsassız dərəcədə yük yaratması;

**(d)** sənədin itirildiyi və ya məhv edildiyi halların əsaslı ehtimalla sübut edilməsi;

**(e)** Arbitraj məhkəməsinin tutarlı hesab etdiyi kommersiya məxfiliyi və ya texniki məxfilik əsasları;

**(f)** hökumət və ya beynəlxalq ictimai institut tərəfindən məxfi kimi təsnif edilmiş sübutlar da daxil olmaqla arbitraj məhkəməsinin tutarlı hesab etdiyi xüsusi siyasi və ya institusional həssaslıq əsasları; və

**(g)** arbitraj məhkəməsinin tutarlı hesab etdiyi prosessual qənaət, mütənasiblik , ədalət və ya tərəflərin bərabərliyi nəzərə alınaraq irəli sürülən əsaslar.

**3.** Arbitraj məhkəməsi tərəfin tələbi və ya öz təşəbbüsü ilə qanunsuz yolla əldə edilmiş sübutları istisna edə bilər.

**4.** Arbitraj məhkəməsi 9.2(b) maddəsi üzrə qanuni məhdudiyyət və ya imtiyaz məsələlərini araşdırarkən və tətbiqinə qərar verdiyi məcburi hüquqi və ya etik normalar buna icazə verdiyi həcmdə aşağıdakıları nəzərə ala bilər:

**(a)** hüquqi məsləhət almaq və ya vermək məqsədilə hazırlanmış sənədin, bəyanatın və ya şifahi izahatların məxfiliyini qorumaq zərurəti;
**(b)** barışıq danışıqları ilə bağlı və bu məqsədlə hazırlanmış sənədin, bəyanatın və ya şifahi izahatların məxfiliyini qorumaq zərurəti;
**(c)** qanuni məhdudiyyət və ya imtiyazın yarandığı iddia olunan vaxt tərəflərin və onların məsləhətçilərinin gözləntiləri.
**(d)** razılıq, vaxtından əvvəl açıqlanma, sənədi, bəyanatı, şifahi izahatı və ya orada yer alan məsləhəti tərəfin öz mövqeyini dəstəkləmək məqsədilə istifadə etməsi və ya digər hallar nəticəsində hər hansı qanuni məhdudiyyət və ya imtiyazdan imtina edilməsi ehtimalı; və
**(e)** xüsusilə tərəflər müxtəlif hüquqi və ya etik qaydalara tabe olduqda, onların arasında ədalət və bərabərliyin qorunması zərurəti.

**5.** Arbitraj məhkəməsi zəruri hallarda məxfiliyin qorunması üçün müvafiq tədbirləri təmin etmək şərti ilə sənədlərin təqdim edilməsinə, eləcə də sübutların təqdim olunmasına və ya nəzərdən keçirilməsinə imkan vermək üçün zəruri tədbirlər görə bilər.

**6.** Vaxtında etiraz etmədiyi sənədin verilməsinə dair sorğuda tələb olunan və ya arbitraj məhkəməsinin tələb etdiyi hər hansı sənədi əsaslı səbəb göstərmədən təqdim etməyən tərəf barəsində arbitraj məhkəməsi həmin sənədin həmin tərəfin maraqlarının əleyhinə olacağı qənaətinə gələ bilər.

**7.** Bir tərəfin vaxtında etiraz etmədiyi müvafiq sübutu (o cümlədən şahid ifadəsini) başqa bir tərəf ondan tələb edirsə və tərəf əsaslı səbəb göstərmədən onu təqdim etmirsə, və ya tərəf arbitraj məhkəməsinin təqdim edilməsini tələb etdiyi aidiyyəti sübutu (o cümlədən şahid ifadəsini) qənaətbəxş izahat olmadan təqdim etmirsə, arbitraj məhkəməsi belə sübutun həmin tərəfin maraqlarının əleyhinə olacağı qənaətinə gələ bilər.

**8.** Arbitraj məhkəməsi bir tərəfin sübutların toplanması çərçivəsində xoşniyyət prinsipinə uyğun davranmadığını müəyyən edərsə, bu Qaydalarda nəzərdə tutulmuş digər tədbirlərlə yanaşı, həmin davranışı arbitraj xərclərinin bölüşdürülməsində nəzərə ala bilər. Bu zaman sübutların toplanmasından irəli gələn və ya onunla bağlı xərclər də nəzərə alına bilər.

## İlk İşçi Qrupunun üzvləri (1999-cu il Qaydalarının müəllifləri)

| | |
|---|---|
| David W Rivkin | Emmanuel Gaillard |
| Wolfgang Kühn | Paul A Gélinas |
| Giovanni M Ughi | Hans van Houtte |
| Hans Bagner | Pierre A Karrer |
| John Beechey | Jan Paulsson |
| Jacques Buhart | Hilmar Raeschke-Kessler |
| Peter S Caldwell | V V Veeder, QC |
| Bernardo M Cremades | O L O de Witt Wijnen |

**BVA Sübut Qaydalarına Baxış Altkomitəsinin üzvləri (2010-cu il redaksiyası)**

| | |
|---|---|
| Richard H Kreindler | Georg von Segesser |
| David Arias | Essam Al Tamimi |
| C Mark Baker | Guido S Tawil |
| Pierre Bienvenu | Hiroyuki Tezuka |
| Amy Cohen Kläsener | Ariel Ye |
| Antonias Dimolitsa | Xiang Ji |
| Paul Friedland | Kap-You (Kevin) Kim |
| Nicolás Gamboa | Toby T Landau, QC |
| Judith Gill, QC | Alexis Mourre |
| Peter Heckel | Hilmar Raeschke-Kessler |
| Stephen Jagusch | David W Rivkin |

**Baxış İşçi Qrupunun üzvləri (2020-ci il redaksiyası)**

| | |
|---|---|
| Gaëtan Verhoosel | Ben Juratowitch |
| Philippe Pinsolle | Tejas Karia |
| Joseph E. Neuhaus | Bartosz Kruzewski |
| Nathalie Voser | Noiana Marigo |
| Álvaro López de Argumedo | Carmen Martinez López |
| Fernando Mantilla-Serrano | Isabelle Michou |

| | |
|---|---|
| David S. Blackman | Babajide Ogundipe |
| Santiago Rodríguez Senior | Andrey Panov |
| Jesús Saracho Aguirre | Tyler B. Robinson |
| Alice Williams | Samantha J. Rowe |
| Hassan Arab | Sabina Sacco |
| Pierre Bienvenu | Anne-Véronique Schlaepfer |
| Stefan Brocker | Helen H Shi |
| Daniel Busse | Jimmy Skjold Hansen |
| Cecilia Carrara | Erica Stein |
| Kabir Duggal | Cosmin Vasile |
| Valeria Galindez | Mohamed Abdel Wahab |
| Laura Halonen | Ariel Ye |
| Ximena Herrera-Bernal | Roland Ziadé |